**UOT 741.5**

**Kəmalə Kamandar qızı Mustafayeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Müəllim**
**E-mail: kamalamustafazadeh@gmail.com**

# YAVƏR ƏSƏDOVOVUN KARİKATURALARINDA MÖVZU MÜXTƏLİFLİYİ

**Xülasə:** Məqalədə, karikaturaçı rəssam Yavər Əsədovun respublika dövri mətbuatında dərc edilmiş, eləcə də beynəlxalq karikatura müsabiqələrində və sərgilərdə nümayiş olunmuş karikaturalarının mövzu müxtəlifliyindən və rəngarəngliyindən bəhs edilir. Rəssamın, cəmiyyətdə mövcud olan əyintilərin, çeşidli problemlərin işıqlandırılması istiqamətində səmərəli fəaliyyəti qeyd olunur. Məqalədə, rəssamın çoxşaxəli yaradıcılığı, fəaliyyətinin müxtəlif dövrlərində işləyib hazırladığı müxtəlif mövzulu karikaturaları və satirik rəsmləri təhlil edilir.

**Açar sözlər:** karikatura, mövzu rəngarəngliyi, əyintilər, tənqid, ifşa, qrotesk, satirik jurnal, yaradıcılıq, rəssam

Respublikanın ictimai-siyasi və bədii həyatının ümumi mənzərəsini öz yaradıcılığında əhatəli və çoxşaxəli şəkildə təsvir edən Azərbaycanın karikaturaçı rəssamlarının əsərləri bütün dövrlərdə özünün mövzu müxtəlifliyi, bədii təsvir vasitələrinin rəngarəngliyi, aktuallığı və müasirliyi ilə seçilmişdir. Uzun illər Azərbaycan karikaturasının Sovet karikaturası çərçivələrində inkişaf etməsinə baxmayaraq, rəssamlarımız bu inkişafın istiqamətlərini real həyatdan doğan əsərlərində reallaşdıraraq, milli karikatura məktəbimizin inkişafına öz layiqli töhfələrini vermişlər. Rəssamlarımız cəmiyyətdə mövcud olan aktual problemlərin tənqidi, əyintilərin və nöqsanların ifşası mövqeyində duraraq, "karikatura sosial əhəmiyyətli və lazımlı incəsənət növüdür" prinsipinə istinad etmişlər. XX əsrin 70-ci illərindən Sovet dövrü mətbuatı, xüsusilə də "Kirpi" satirik jurnalı ilə əməkdaşlıq etmiş, yaradıcılıq axtarışları prosesində bədii yetkinlik mərhələsinə çatmış karikaturaçı rəssamlarımızdan biri də Yavər Əsədov olmuşdur. Y.Əsədovun mətbuat səhifələrində dərc olunmuş əsərləri mövzu müxtəlifliyi, bədii təsvir vasitələrinin rəngarəngliyi, rəssam tapıntısı və orijinal yanaşma tərzi ilə seçilir. Rəssamın orijinal yanaşma tərzi ilə seçilən bu əsərləri onun davamlı axtarışlarının, gərgin və məhsuldar əməyinin nəticəsi kimi qiymətlidir. Bütün bu illər ərzində Y.Əsədov istər siyasi və məişət mövzulu karikaturaların, istər təbliğat və təşviqat xarakterli rəsmlərin, istərsə də dostluq şarjlarının müəllifi

kimi tanınmış və şöhrət qazanmışdır. Rəssamın müxtəlif illərdə “Kirpi” satirik jurnalında, eləcə də dövri mətbuat səhifələrində dərc olunmuş, dünyada və ölkədə baş verən siyasi hadisələri işıqlandıran, gündəlik həyatda müşahidə olunan nöqsanları ifşa edən karikaturaları bu gün də öz aktuallığını qoruyub saxlamışdır. Bu rəsmlərdə cəmiyyətin inkişafına mane olan ünsürlər tənqid atəşinə tutulur, torpaqlarımızın işğalı, təcavüzkar siyasət kəskin şəkildə ifşa edilirdi. Bu mənada rəssamın dövri mətbuat səhifələrində dərc olunmuş müxtəlif mövzulu karikaturalarının, təbliğat xarakterli rəsmlərinin xüsusi ictimai-siyasi yük daşıdığının şahidi oluruq. Y.Əsədovun yaradıcılığının, xüsusilə də son illərdəki fəaliyyətinin araşdırılması, onun yaradıcılığında bu məzmunlu rəsmlərin, eləcə də siyasi karikaturaların çoxluq təşkil etdiyini göstərir.

Y.Əsədovun yaradıcılığı haqqında professor Bayram Hacızadənin müəllifi olduğu “Kirpi”nin rəssamları” adlı kitabında oxuyuruq: “Daim öz üzərində çalışan, bu nadir sənətin incəliklərini həvəslə öyrənən Y.Əsədov tez bir zamanda öz dəst-xətini formalaşdırmış, “Kirpi” jurnalının səhifələrində müxtəlif mövzulu karikaturalar və satirik rəsmlərlə çıxış etməyə başlamışdır. Y.Əsədovun müəllifi olduğu karikaturaları diqqətlə araşdırdıqca onun rəsmdən-rəsmə, ildən-ilə püxtələşərək inkişaf etdiyini görmək olar. Özünü bütünlüklə bu sənətə həsr etmiş tanınmış karikaturaçı rəssamın imzasına jurnalın, demək olar ki, bütün nömrələrində rast gəlirik. Bütün yaradıcılığı boyu sənətinə, çalışdığı sahəyə sədaqətlə xidmət etmiş bu təvazökar insan bir rəssam kimi özünə, öz dəst-xətinə də sadiq qalmışdır. Başqa sözlə, o, bütün bu illər ərzində öz üslubunu, qrafika dilini və rəssam mədəniyyətini qoruyub saxlamışdır. Təsadüfi deyildir ki, Y. Əsədovun keçən əsrin 70-ci illərindən bu günə qədər çəkdiyi kiçikli-böyüklü hər bir əsərini oxucular onun imzası olmadan da tanıyır və rəğbətlə qarşılayırlar” [4. s.224].

Rəssamın ilk karikaturaları hələ 1973-cü ildə, “Kirpi” jurnalının, “Oxucularımızın yaradıcılığı” rubrikası altında dərc olunmuşdur. Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində təhsil alan gənc rəssam Y.Əsədovun “Qonaqlarımız”, “Qəbiristanlıqda”, “Bu kişidir, ya arvad?”, “Rayonlardan şəhərə gələnlər”, “Buralara onsuz da gəlib-gedən yoxdur”, “Neçə dəfə sənə demişəm ki, özündən kiçiyi incitmək olmaz!” adlı karikaturalarında gənc rəssam cəmiyyətdə, gündəlik həyatda adi insanların üzləşdikləri məişət mövzulu problemləri gündəmə gətirmişdir [7. s.4] (şəkil 1).

Sovet dövrünün sosial problemləri özünü bu və ya digər formalarda büruzə verir, pafoslu çıxışlar, şüarlar, boş vədlərin arxasında duran yalan, sabahkı “xoşbəxt gələcəy”ə inamsızlıq insanların həyat tərzinə və davranışlarına öz neqativ təsirini göstərirdi. Qurultaylarda və plenumlarda, iclas və müşavirələrdə dəfələrlə rüş-

vətxorluqla mübarizə haqqında qərarlar qəbul edilməsinə baxmayaraq, bu problem öz həllini tapmırdı. Sovet cəmiyyəti üçün xas olan bu kimi problemlər karikatu- raçı rəssamlar üçün də sözün əsl mənasında mövzu bolluğu yaradırdı. O illərin satirik qrafikasında öz vəzifəsindən sui-istifadə edən məsul işçilərin, rüşvətə mey- lli məmurların, vətəndaşların şikayətlərinə, arzu və təkliflərinə laqeyd münasibət göstərən səriştəsiz və özbaşına idarə rəislərinin, məsul olduğu vəzifənin öhdəsindən gələ bilməyən, işində ciddi nöqsanlara yol verən müəssisə və təşkilat rəhbərlərinin tənqidinə və ifşasına yönəlmiş karikaturalar çoxluq təşkil edirdi. Artıq ümumi bəlaya çevrilmiş rüşvətxorluğun və qohumbazlığın ifşasına yönəlmiş "Bu əməlim yazılmasın kaş bir yana", "Barmağına qurban", məmur özbaşınalığının və süründürməçiliyin tənqidinə yönəlmiş "Söylə haralısan, haralı durna", "Yoldaş rəis, iş vaxtı qurtardı", "Otur – tamaşa elə", "Çıxış yolu", boş vədlər verən boşboğaz və simasız məmurların ifşa olunduğu "I yer mənimdi", "Hələ çox danışacaqsan?"..., "Dil pəhləvanı", "Buyur, bu da sənin mənzilin", kənd təsərrüfatı texnikasının səhlənkarlıqla işlədilməsi və saxlanmasını tənqid edən "Bu maşınların hansında istəyirsən yuva sal" və digər bu kimi karikaturalar öz ifşaedici gülüşü, kəskin sarkazmı ilə diqqət çəkir (şəkil 2).

Məsul vəzifəli şəxslərin, təşkilat rəhbərlərinin dövlət əmlakına, xalq malına laqeyd münasibəti rəssamın karikaturalarında bütün çılpaqlığı ilə göstərilmişdir. Maraqlı kompozisiya quruluşu, mövzuya orijinal yanaşma tərzi ilə seçilən "Tap görüm kimdir?" adlı iki hissəli karikaturada o illərin acı mənzərəsinin şahidi oluruq. Birinci rəsmdə ön planda dövlət malını, ferma qoyunlarını qoruyan çoban və onun gözlərini arxadan əlləri ilə bağlayaraq "Tap görüm kimdir?" deyən rəis təsvir olunmuşdur. Rəsmin arxa planında isə çobanın gözlərinin bağlı olduğunu fürsət bilib, qoyunlardan birini oğurlayıb maşına basan ikinci "qəhrəman"ı görürük. Rəsmdən aydın olur ki, rəis çobanın gözlərini qəsdən yumur və bununla da oğruya öz "işini" görmək üçün şərait yaradır. Karikaturada əsas məqam rəisin "Tap görüm kimdir?" sualına çobanın – "Ferma müdiri, mühasib, sədr, müfəttiş, sahə müvəkkili, milis?.." [9. s.4] cavabıdır. Çobanın cavabından aydın olur ki, adları çəkilən, əslində isə məsul vəzifə sahibləri olan bu şəxslərin hər biri kolxoz qoyunlarının real qənimləridir. Yəni bu vəzifəli şəxslərin hər biri davamlı olaraq çobandan istənilən qədər qoyun-quzu götürüblər. Bunu da gözətçinin bu hadisəyə belə rahatçılıqla, hətta zarafatla münasibət göstərməsi sübut edir.

Karikaturanın ikinci rəsmində isə hər iki qəhrəman heç nə olmamış kimi, mehribanlıqla sağollaşaraq bir-birindən ayrılırlar. Sadə kompozisiya quruluşu ilə seçilən bu karikatura, əslində o illərin acı reallığını əks etdirir. Bu karikaturada rəssam, xalq malına biganə münasibət bəsləyən məsul vəzifəli məmurları hədəf seçərək, onların

laqeydliyini respublika mətbuatına, ictimaiyyətin nəzərinə çox orijinal formalarda çatdırmağa müvəffəq olmuşdur (şəkil 3).

Sovet illərində kənd təsərrüfatı, sənaye və istehsalat sahələrində müşahidə olunan nöqsanlar və əyintilərlə yanaşı, təmir və tikinti sektorunda da olan saysız-hesabsız problemlər, yolların bərbad vəziyyəti, bu sahəyə məsul olan şəxslərin öz işlərinə laqeyd münasibəti də aktual mövzulardan biri olmuşdur. Y.Əsədov, tikinti təşkilatlarının yarıtmaz və keyfiyyətsiz işini, bu sahədəki başsızlığı "Ay uşaq, gedin o yanda oynayın, hələ binanı təhvil verməmişik", "Evin tikilsin", ev tikən!" adlı karikaturalarında bütün çılpaqlığı ilə göstərmişdir. İndi də öz aktuallığını və müasirliyini qoruyub saxlamış bu karikaturalar peşəkar rəssam işi, kəskin sarkazmı, hadisənin maraqlı rakursdan təqdim olunması baxımından maraq doğurur. Cəmiyyətdə müşahidə olunan çeşidli problemləri, əyintiləri, mövcud nöqsanları tənqid edən Y.Əsədovun incə yumorla aşılanmış, orijinal rəssam tapıntısı ilə seçilən əsərləri geniş oxucu-tamaşaçı kütləsinə asanlıqla başa düşülən şəkildə təqdim olunurdu. Bu karikaturalarda el misallarından, xalq mahnılarının mətnlərindən və yanıltmaclardan istifadə edilməsi müəllif və oxucu arasındakı ünsiyyətin daha anlaşıqlı olmasına xidmət edirdi. Dövri mətbuat səhifələrində dərc olunmuş "Sən haralısan, haralı durna", "Toy sahibi qonaqları saydı bu gün, Toy, toy, toydu bu gün", "Çəkəndə misri qılıncı, leş bir yana, baş bir yana", "O olmasın, bu olsun", "Bu gəlini gətirəndə baxmazlar ki, bu kişidir ya arvaddır", "Dartdı, dartdı, çıxartdı", "Məcnun, Məcnun!, Dur gedək", "Bəy verən atın dişinə baxmazlar", "Bu Leyli ilə də qohumluğumuz baş tutmadı" və digər karikaturalarda müəllif el misallarından, atalar sözlərindən və bayatılardan məharətlə istifadə etmişdir. Əlbəttə, karikaturaların bu cür təqdim olunması oxucuya onu daha asan anlamağa, mövzunu daha aydın başa düşməyə kömək edirdi. Son dərəcə duzlu yumoru ilə yadda qalan bu rəsmlər hadisələrə orijinal yanaşma və peşəkar rəssam işi ilə də seçilir (şəkil 4).

Rəssamın "Gedək, Məcnun, bu Leyli ilə də qohumluğumuz baş tutmadı!..." adlı məşhur karikaturası 1977-ci ildə "Kirpi" jurnalının 23-cü nömrəsinin üz qabığında dərc olunmuşdur [8. s.1]. Öz orijinal rəssam tapıntısı ilə seçilən bu karikatura Y.Əsədovun görkəmli bəstəkar Ü.Hacıbəyovun "Leyli və Məcnun" əsərinə müasir variantda baxışı kimi maraq doğurur. Karikaturanın süjet xəttinə görə Leyligilə elçi gəlmiş Məcnunun atası və qohumları, qız evinin onlara yazılı şəkildə təqdim etdiyi şərtləri gördükdən sonra, bu sevdadan əl çəkmək məcburiyyətində qalaraq, kor-peşman geri dönməli olurlar. Karikaturanın sağ hissəsində, ön planda məyus və küskün vəziyyətdə addımlayan Məcnun təsvir olunmuşdur. Onun əlində tutduğu, Leylinin atasının onlara verdikləri siyahıda oxuyuruq: "Volqa maşını (qarajı ilə), Dördotaqlı mənzil (dəniz qırağında), Sırğa, üzük, boyunbağı (brilyant qaşlı), Mir-

vari yeddi sap (noxud boydasından), Dublyonka importni (bahalısından)". Bu yazıdan aydın olur ki, Leylinin atası qızının əvəzinə Məcnunun valideynlərindən o illər üçün ağlasığmaz cehiz istəmişdir. Buna imkanı olmayan oğlan evinin nümayəndələrinin kor-peşman geri dönmələrini rəssam çox böyük ustalıqla təsvir etmişdir. Karikaturanın arxa planında, çadırın altında öz qohumlarının əhatəsində əyləşmiş Leylinin atasının hiyləgər və tamahkar baxışları bu "qəhrəman"ın əsl simasını açır. Çadırın sol tərəfində isə bu vəziyyətdən məyus olan Leyli və onun anası pərişan və köməksiz baxışlarla təsvir olunmuşdur. Yüksək peşəkarlıqla işlənmiş, lokal rənglərdən istifadə edilmiş bu karikatura o illər üçün aktual olan mövzulardan birinə həsr olunmuşdur. Bu əsərdə rəssamın ən böyük uğuru təqdim etdiyi qəhrəmanların xarakterini realistik tərzdə aça bilməsində, mövzunun müasirliyində və ən başlıcası orijinal süjet tapıntısındadır (şəkil 5).

Həmin dövrdə artıq ümumi bəlaya çevrilmiş, cəmiyyəti içindən dağıdan mənəviyyat, tərbiyə, maarif və təhsil sahəsində mövcud olan ciddi problemlər, eləcə də gündəlik həyatda, məişətdə insanların üzləşdiyi nöqsanlar və əyintilər Yavər Əsədov yaradıcılığında öz əksini tapmışdır. Rəssamın şəxsi müşahidələrinin və məhsuldar fəaliyyətinin məhsulu olan ərköyün böyüdülən, təhsildən yayınan, oxumaq, öyrənmək əvəzinə günlərini əyləncələrdə keçirən modabaz gənclərin tənqidinə yönəlmiş "Bu müəllimədən çox şey öyrənə bilərsiniz", "Ay oğul, gedək evə...", nəyin bahasına olursa, olsun uşaqlarına ali təhsil vermək istəyən, onları "yağlı" işlə təmin etməyə çalışan valideynlərin ifşa olunduğu "Gülmə-şəkər balalar", "Mənim oğlum müdir olacaq", "Xoş gəlmisiz", ailələri, evləri dağıdan içki düşkünlüyü probleminə həsr olunmuş "Olum ya ölüm!", "Sərxoşluğun daşını atdı", "Ayırdı ailədən, məhv etdi məhəbbəti", səhiyyə sahəsində baş alıb gedən rüşvətlə mübarizəyə ünvanlanmış "Bəzi xəstəxanalarda", "Əməliyyat", "Əməliyyat stolunda", eləcə də insanların gündəlik həyatda üzləşdikləri müxtəlif problemləri gündəmə gətirən "Gələndə və gedəndə", "Keçid", "Tamaşa elə...", "Canım üçün impotnudu", "Mənə şikayət kitabını verin" [6. s.30; 1. s.8] və s. bu kimi karikaturaları öz orijinal həlli və rəssam tapıntısı ilə seçilir (şəkil 6).

"Karikaturada insan və əşyaların şişirtmə və transformasiyası subyektiv şəkildə baş alıb gedə bilməz. Hər cür şişirtmə obyektiv satirik mənaya malik olmalı, ciddi bədii intizamla tənzimlənməlidir" [11. s.15]. Y.Əsədovun karikaturalarındakı qrotesk və şişirtmə, qabardılmış forma və həcmlər ciddi şəkildə tənzimlənir, estetik normalar gözlənilir, ölçülərin pozulmasında müəyyən çərçivə saxlanılır. Bu karikaturalar yüksək bədii estetikaya malik olduğuna görə, bu gün də müasir və baxımlıdır. Tamaşaçıda təəccüb və təəssüf hissi doğuran bu karikaturaların süjet xətti, tənqid hədəfi olan "qəhrəman"ların düşdükləri vəziyyət üzərində qurulmuşdur. Bu

karikaturalarda müəllifin ifşaedici gülüşü ilə yanaşı, məzəmmət, tənə və istehza cəhdləri də aydın görünür. Özündə tənqid, ifşa, acı gülüş daşıyan bu karikaturaları izlədikcə, o illər adi insanların gündəlik həyatda üzləşdikləri çeşidli problemlərin, cəmiyyətdə baş verən müxtəlif ictimai-siyasi hadisələrin şahidinə çevrilmiş oluruq.

Keçən əsrin 80-ci illərinin ortalarından başlayaraq Sovet ittifaqının daxilində gedən mürəkkəb və ziddiyyətli proseslər, bütün sahələrdə olduğu kimi, təsviri sənətin ən mübariz qolu olan satirik qrafika sahəsində də öz əksini tapmışdır. Hakimiyyət dəyişikliyi, yeni "rəhbərin" apardığı "aşkarlıq" və "demokratiya" siyasəti, torpaqlarımızın işğalı, ata-baba torpaqlarını itirmiş insanların acı taleyi cəmiyyətin bütün təbəqələrinə, eləcə də rəssam-jurnalistlərimizin yaradıcılığına sirayət etmişdir.

1991-ci ildə müstəqilliyini elan etmiş respublikamıza Sovet imperiyasından miras qalmış "Qarabağ problemi", cəmiyyətin yaşadığı siyasi, sosial, iqtisadi və mədəni problemlər bütün rəssam-jurnalistlərimiz kimi, Y.Əsədov yaradıcılığının da mövzu və forma biçiminə təsir etmiş, rəssamın satirik qrafikasının ümumi inkişaf istiqamətini və bədii təzahür formalarını müəyyənləşdirmişdir. Yeni ifadə tərzi, yeni formalar axtarışında olan Y.Əsədovun milli dəyərlərə, milli kökə istinad edərək yaratdığı əsərlər özündə o illərin siyasi mənzərəsini əks etdirir.

Müstəqillik dövrü, müasir zaman incəsənət, ədəbiyyat, jurnalistika, xüsusilə də təsviri sənətin ən mübariz qolu olan karikatura sahəsində çalışan yaradıcı insanların qarşısında yeni tələblər, yeni vəzifələr qoyurdu. Bu cəbhədə yorulmadan çalışan rəssamlarımız ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir, müstəqilliyimizin qorunması, respublikada baş qaldıran separatizmlə mübarizə, qonşu ölkələrin imperiya iddiaları, ölkədə gedən qarşıdurmalar, çirkin siyasi oyunlar rəssam-jurnalistlərimizi birləşdirir, onları düşmənlərimizə qarşı barışmaz mövqedən çıxış etməyə səfərbər edirdi. Bütün karikaturaçı rəssamlarımız kimi, Y.Əsədovu da narahat edən bu ağrılı mövzular onun yaradıcılığının ana xəttini təşkil edirdi. "Demokratiya", "Uda bilməzsən", "Köməyə ehtiyacımız yoxdur", "Böyük Ermənistan", "İşğalçıya alqışlar", "Öz işinin ustası", "Sülh tərəfdarı", "ABŞ siyasəti", "Sağıcı" və bu kimi digər karikaturalarında rəssam Azərbaycana qarşı olan təcavüzün miqyaslarını, dünya birliyinin bu işğala, bu haqsızlığa biganəliyini, iri dövlətlərin "ikiüzlü" siyasətini bütün çılpaqlığı ilə göstərməyə müvəffəq olmuşdur [2. s.42; 12] (şəkil 7).

Karikaturaçı rəssamın "Kirpi" satirik jurnalının üz qabığında dərc olunmuş "Azərbaycan tarixi" adlı əsəri özünün mövzu aktuallığı və peşəkar rəssam işi ilə diqqət çəkir. "Klassik ədəbi materialın müasir interpretasiyası kimi təqdim olunmuş bu karikaturada üzərində "Azərbaycan tarixi" yazılmış qovluğu müxtəlif tərəflərə çəkən leylək, xərçəng və balıq təsvir olunmuşdur" [3. s.174]. Karikaturada müəllif,

klassik mətnin müasir traktovkası və hamıya yaxşı tanış olan vəziyyətin tamamilə yeni bir yozumunu təsvirə gətirmişdir. İdeyanın asanlıqla çatdırılmasında alleqoriyadan istifadə edən rəssam, təbii ki, ölkədə baş verən mövcud vəziyyəti jurnalın oxucularının nəzərinə çatdırmağa çalışmışdır. Azərbaycan tarixinin dəyişdirilməsinə olunan cəhdləri, bu sahədə mövcud boşluqları, alimlər arasındakı ciddi fikir ayrılığını özündə əks etdirən bu karikatura əslində o illər ölkədəki real vəziyyəti bütün çılpaqlığı ilə göstərirdi (şəkil 8).

Ümumiyyətlə, karikaturaçı rəssamlar arasında müəyyən obrazlardan, tanınmış personajlardan və ya əşyalardan, eləcə də onların funksional cəhətlərindən yerində və düzgün istifadə etməklə, fikri daha asan çatdırmaq üsulu geniş yayılmışdır. Bu karikaturada da müəllif, cəmiyyətdə tez-tez müşahidə olunan "hərə bir tərəfə çəkir" deyimini ümummilliləşdirərək, təmsil qəhrəmanları vasitəsilə mövzunu tamaşaçıya tamamilə başqa aspektdən, lakin olduqca tanış rakursdan təqdim etmişdir. Əsərin ən böyük üstünlüyü və uğuru isə tamaşaçının onu müşayiətedici mətn olmadan, yəni "sözsüz" başa düşə bilməsindədir. Özünü bütünlüklə seçdiyi sənətə, xidmət etdiyi peşəyə həsr etmiş Yavər Əsədov 1996-cı ildə "Zarafat" beynəlxalq – müstəqil qəzetini təsis edir. Təsisçisi, baş redaktoru, eyni zamanda da rəssamı olduğu "Zarafat" qəzetinin səhifələrində müasir dövrlə səsləşən felyetonlar, məqalələr və karikaturaları ilə çıxış edən rəssam ölkəmizin üzləşdiyi təcavüz, işğal, respublikamıza qarşı yönəlmiş siyasi basqılar, təzyiqlər, xalqımıza qarşı ədalətsizlik, eləcə də vətəndaşları narahat edən sosial və məişət problemləri işıqlandırmışdır. Onun, "Zarafat" satirik qəzetində dərc olunmuş "Uymuşam rüşvətə pula mən", "Maaş və qiymətlər", "Dil pəhləvanı", "Bir ağılın budağından sallanıb neçə-neçə ağlı dayaz yaşayır", "Qaçqın balasıyam, Bakıda doğulmuşam, Bakıda qalasıyam" [10] və digər karikaturalarında təcrübəli rəssam ifşaedici gülüşlə o illərin çeşidli problemlərini işıqlandırmaqla yanaşı, problemi doğuran səbəblərin axtarışına da diqqəti cəlb etməyə müvəffəq olmuşdur (şəkil 9). Y.Əsədovun karikaturaları üçün xarakterik olan cəhət, xətti ifadə vasitələrindən maksimum istifadə etmək, qroteskə – ideyanın mahiyyətindəki paradoksallığın açılması yolu ilə nail olmaq, fiqurların, həcm və formaların ifadəsində lakonik cizgilərlə kifayətlənərək, diqqəti yalnız məzmunun çatdırılmasına yönəltməkdən ibarətdir.

Tanınmış karikatura ustası Yavər Əsədovun yaradıcılığında ictimai-siyasi yük daşıyan ciddi məzmunlu karikaturalarla yanaşı, gülüşlə müşahidə olunan, tamaşaçıda xoş ovqat yaradan dostluq şarjları da mühüm yer tutur. Bütün bu illər ərzində Y.Əsədov dövrünün tanınmış insanlarına, əmək qəhrəmanlarına, incəsənət xadimlərinə həsr edilmiş zəngin şarj qalereyası yaratmağa nail olmuşdur. Karikaturanın ayrılmaz tərkib hissəsi sayılan şarj janrının geniş yayılmış qolu olan dostluq şarjları rəssamın yaradıcılığının mühüm hissəsini təşkil edir desək, yəqin ki, yanılmarıq.

Özünəməxsus dəst-xəti, cəsarətli ştrixləri ilə seçilən rəssamın əmək qəhrəmanlarına və sənət adamlarına həsr etdiyi dostluq şarjları Azərbaycanın ictimai-siyasi xadimlərinin, görkəmli şəxsiyyətlərinin şarj qalereyasını zənginləşdirmişdir. Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu silsilə rəsmlərində müəllif hər bir obrazın xarakterik cizgilərini, saç düzümü və maneralarını təsvir olunmuş qəhrəmanların yaradıcılıq tərzinə, eləcə də şarj janrının tələblərinə uyğun olaraq təsvir etmişdir.

Y.Əsədovun əmək qəhrəmanları Ş.Həsənova, N.Məmmədova, Ş.Xəlilova, X.Həsənova, Y.Abdullayeva, M.Allahverdiyeva, N.Qurbanova, T.Musayeva və H.Əliyevaya həsr etdiyi dostluq şarjları təbrik şeiri ilə müşayiət olunmuşdur. “Qəhrəman Azərbaycan qadınının əmək cəbhəsindəki qələbələrini vəsf edən bu dostluq şarjları təbliğat xarakterli rəsm kimi də qəbul oluna bilər. Bu rəsmlərdə müəllif, uzun müddət apardığı müşahidələr nəticəsində modelin lakonik qrafik simvolunu tapmış müəyyən detallar və loqotiplər vasitəsi ilə obrazların informativliyinə nail olmuş, qəhrəmanlarının sifət cizgilərini, demək olar ki, eynilə saxlamışdır” [5. s.294]. Rəsmlərində güclü iradəyə malik, məğrur görünüşlü Şərq qadınlarının üzünü ifadəli cizgilərlə təsvir etməklə, müəllif öz qəhrəmanlarının dəqiq obrazlarını tamaşaçıya çatdıra bilmişdir (şəkil 10).

T.Makoley dostluq şarjları haqqında yazır: “Dostluq şarjı “dağıdıcı” deyil, “qurucu” başlanğıca malikdir. Bu tənəli gülüş deyil, dostcasına və zarafatyana bir gülüşdür” [14]. Öz sənətinə, eləcə də şarjını çəkdiyi qəhrəmanlara xüsusi həssaslıqla yanaşan peşəkar rəssam, müəllifi olduğu dostluq şarjlarında heç vaxt qəhrəmanın mütənasibliklərini eybəcərləşdirməmiş, onu simasızlaşdırmamışdır, əksinə, obraz üçün xarakterik və tipik olan cizgiləri axtarıb taparaq, onun manera və jestlərinin, həmçinin xasiyyət və ya sevimli məşğuliyyətinin əsas cəhətlərini qabartmışdır. Görkəmli karikatura ustası D.Moor yazırdı: “Şarj üçün kompozisiya mütləqdir” [13]. Bu prinsipdən çıxış edən rəssam öz şarjlarının kompozisiyası üzərində də çox ciddi işləyirdi. Y. Əsədovun xalq yazıçısı Bəxtiyar Vahabzadə, Xalq artisti Nəsibə Zeynalova, Hacıbaba Bağırov və Fidan Qasımovaya həsr olunmuş dostluq şarjlarında kompozisiya quruluşuna xüsusi diqqət ayıraraq, təqdim olunan bədii obrazlarının uğurlu həllini tapmışdır. Y.Əsədov Olimpiya çempionları İ.Məmmədov, İ.Ponomaryov, B.Kopetski, əmək qəhrəmanları Ə.Əlirzayev, X.Nurullayev, eləcə də pambıq ustası S.Salmanova dövlət mükafatı verilməsi münasibəti ilə işləyib hazırladığı rəsmlərdə təsvir olunmuş qəhrəmanların peşələrindən çıxış edərək, burada da “Şarj üçün kompozisiya mütləqdir” [13] prinsipindən çıxış etmişdir. Bu şarjlarda kompozisiya quruluşuna dəqiqliklə yanaşmış Y.Əsədov obrazların forma və həcmlərini, onların üz cizgilərini qabardaraq fiqurları transformasiya etmiş, bununla da yumoristik obraz yaratmağa nail olmuşdur (şəkil 11).

Yuxarıda sadalanan bu rəsmlərdə, qrafikanın bütün imkanlarından yerində və məharətlə istifadə edən müəllif, görkəmli şəxsiyyətlərin, şair və yazıçıların, əmək qəhrəmanlarının dostluq şarjlarını yaratmışdır. Qeyd olunmalıdır ki, əksər hallarda həmin rəsmlərin portret və ya dostluq şarji olması mübahisə doğurur. Çünki bu rəsmlər bəzən adi şarjdan daha çox, portret və ya təbliğat plakatını xatırladır desək, yəqin ki, yanılmarıq. Bütün bunlara baxmayaraq, öz yaradıcılığında Azərbaycan karikaturasının zəngin şarj ənənələrini yaşadan Y.Əsədovun müəllifi olduğu dostluq şarjları obrazların orijinal, təkrarsız təqdimat tərzi və yüksək bədii səviyyəsi ilə seçilir. Azərbaycan satirik qrafikasında öz imzası ilə tanınmış və şöhrət qazanmış Y.Əsədovun yaradıcılığında mövzu müxtəlifliyi və rəngarəngliyi haqqında mülahizələrə yekun olaraq deməliyik ki, dövri mətbuat səhifələrində mütəmadi olaraq müxtəlif mövzulu karikaturaları, satirik rəsmləri, dostluq şarjları və plakatları ilə çıxış edən rəssam-jurnalist öz əsərlərində əmək adamını yüksəltmiş, cəmiyyətin inkişafına mane olan, ölkədə gedən dinc quruculuq işləriniləngidən antipodları ifşa etmişdir.

Milli karikatura ənənələrinə əsaslanan, müasir dövrün nailiyyətlərindən bəhrələnən Y.Əsədovun yaratdığı əsərlərdə klassik üslub xüsusiyyətlərini müasirləşdirilməsi, mövzu seçimində və problemə yanaşmada yeniləşmə meyli ilk baxışdan özünü büruzə verir. Son illər dünya karikaturası çərçivəsində inkişaf edən Azərbaycan karikaturasının tanınması və təbliği istiqamətində çalışan rəssam real həyatdan doğan hadisələri və mövcud problemləri öz əsərlərində əks etdirmiş, məhsuldar və səmərəli fəaliyyəti ilə milli karikatura məktəbimizin inkişafına dəyərli töhfələr vermişdir.












**Ədəbiyyat siyahısı:**


1.“Biz və Karikatura” satirik jurnalı. Bakı: “Çaşıoğlu” mətbəəsi, 2006, 24 s.
2.Əliyev Z. “Əzim Əzimzadənin davamçıları”, “Qobustan” sənət toplusu. Bakı: “Əbilov, Zeynalov və oğulları” mətbəəsi, 2010, №2, 96 s.
3.Hacızadə B. “100 illik karikatura tariximiz”. Bakı: “Azəri-dizayn” nəşriyyatı, 2006, 240 s
4.Hacızadə B. “Kirpi”nin rəssamları” (1970-1979-cu illər), II cild. Bakı: “Səda” nəşriyyatı, 2017, 400 s.
5.Hacızadə B. “Kirpi”nin rəssamları” (1980-1991-ci illər), III cild. Bakı: “Səda” nəşriyyatı, 2017, 368 s.
6.Hacızadə B. “Müasir Azərbaycan Karikaturası”. Bakı: “Şərq-Qərb” mətbəəsi, 2007, 128 s.
7.“Kirpi” satirik jurnalı. Bakı: “Kommunist” nəşriyyatı, 1973, № 4, 8 s.
8.“Kirpi” satirik jurnalı. Bakı: “Kommunist” nəşriyyatı, 1977, № 23, 8 s.
9.“Kirpi” satirik jurnalı. Bakı: “Kommunist” nəşriyyatı, 1983, №12, 8 s.
10.“Zarafat” beynəlxalq müstəqil qəzeti. Bakı: “Mətbuat və informasiya” mətbəəsi, 1996, 8 s.
11.Кукриниксы. Собр. в IV томах. том I. Москва: Издательство: “Изобразительное искусство”, 1982, 338 ст.
12.https://www. azercartoon. com/no_to_occupation_and_aggression. htm
13. www. qlossary. ru.
14.www. soros. karelia. ru (Д.Москин. Краткая энциклопедия карикатуры).

**Камала Камандар кызы Мустафаева**

**РАЗНООБРАЗИЕ ТЕМ В ТВОРЧЕСТВЕ ЯВЕРА АСАДОВА**

**Резюме:** В статье рассказывается о тематическом разнообразии и красоч- ности карикатур художника-карикатуриста Явара Асадова, опубликованных в республиканской периодической печати, а также представленных на меж- дународных конкурсах и выставках карикатур. Особое место уделено пло- дотворной деятельности художника по освещению существующих проблем в различных аспектах. В статье анализируется многогранное творчество худож-ника, его разнообразные тематические карикатуры и сатирические рисунки, над которыми он работал в разные периоды своей деятельности.

**Ключевые слова:** карикатура, разнообразие, критика, недостатки, разо- блачение, гротеск, сатирический журнал, творчество, художник.

**Kamala Kamandar gizi Mustafayeva****VARIETY OF THEMES IN YAVER ASADOV'S WORKS**

**Summary:** The article discusses the diversity of topics in Yaver Asadov'sworks, published in republican publications, as well as in exhibitions and international competitions. The special attention is paid to the fruitful activities ofthis artist, aimed at depicting of different sides of the existing problems. Cartoonson various topics, created in different periods of the artist's work, are analyzed inthe article.

**Key words:** cartoon, variety of topics, shortcomings, criticism, exposure,grotesque, satirical magazine, creativity, artist

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 10. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**